**UOT 94(479.24)**

# XX ƏSRİN 80-90-cı İLLƏRİNDƏ QAZAXISTANDA MİLLİ-AZADLIQ MÜBARİZƏSİ

**X.İ.İLYASOVA**
***Gəncə Dövlət Universiteti***
***xatire_ilyasova@mail.ru***

*SSRİ-nin dağılması ərəfəsində Qazaxıstanda ictimai-siyasi gərginliyin artması kütləvi etiraz dalğasının genişlənməsinə və milli-azadlıq hərəkatının geniş vüsət almasına gətirib çıxartdı. Tələbə hərəkatı və ictimai birliklərin meydana gəlməsi ilə müstəqillik uğrunda mübarizə daha kəskin xarakter aldı və16 dekabr 1991-ci ildə Qazaxıstan dövlət müstəqilliyini elan etdi.*

**Açar sözlər:** müstəqillik, sosial-ekoloji problemlər, milli-azadlıq hərəkatı, ictimai birliklər

SSRİ-də və dünya sosializm sistemində iqtisadi, siyasi və sosial sahədə uzun müddət formalaşan böhran 1980-ci illərin sonlarında daha da kəskin xarakter aldı. Sovet imperiyasının çökməsi ərəfəsində Qazaxıstanda da yaranmaqda olan ümumxalq narazılığı özünü açıq formada büruzə verməsə də, müstəmləkəçilik və sistemli assimliyasiya siyasətinə etiraz hərəkatının başlanması üçün fürsət 1986-cı ilin sonlarında yarandı. Uzun illər Qazaxıstan Kommunist Partiyasına rəhbərlik etmiş Dinməhəmməd Kunayev vəzifədən azad edildi. Qazaxıstanın müasir tarixinin tanınmış simalarından olan D.Kunayevi "idarəetmədə rüşvətxorluq və bürokratiyaya yol verməkdə günahlandıraraq" işdən azad etmişdilər.

D.Kunayev Qazaxıstanda 30 ildən artıq rəhbər vəzifədə çalışmışdı və partiya idarəçiliyində onun L.İ.Brejnev dövründə formalaşmış köhnə metodlara üstünlük verməsi hələ Sov.İKP rəhbərliyində olarkən Andropovun diqqətini çəkmişdi. O, mövcud reallıqlara uyğun fəaliyyətini qura bilmirdi. Bu sırada Sov.İKP MK-nın Baş katibi postuna K.Çernenkonun seçilməsi prosesi tormozlamış oldu. Kunayevin işdən çıxarılma ərəfəsində yaşı yetmişi keçmişdi, psixoloji və fiziki cəhətdən yorulmuşdu. Bu baxımdan Kunayevin rəhbər vəzifədən uzaqlaşdırılması Qazaxıstanda sakit qarşılandı, ancaq birinci katib və-

zifəsinə rus millətindən olan Gennadi Kolbinin gətirilməsi vətəndaşların, xüsusən də gənclərin etirazına səbəb oldu. Qazax cəmiyyətində mərkəzin kadr dəyişikliyinə həyəcanlı reaksiya verilməsi, eyni zamanda, Özbəkistandakı proseslərlə bağlıdır. Məlumdur ki, Özbəkistanda da yerli partiya rəhbərliyinin dəyişdirilməsindən sonra qondarma faktlar əsasında kütləvi represiyalarla müşahidə olunan istintaq işi başlanmışdı. Belə bir aqibət 1986-cı ildə G.Kolbinin hakimiyyətə gəlişi ilə Qazaxıstanda da gözlənilirdi. O zaman İttifaqda narazılıqların əsil səbəblərini gizlədərək bunu vəzifə dəyişikliyi ilə əlaqələndirməyə çalışırdılar. 1986-cı ilin 17-19 dekabrında Kunayevin yerinə Kolbinin təyin edilməsinə etiraz əlaməti olaraq minlərlə qazax tələbəsi Alma-Atada mitinq keçirdi. Qarmaqarışıq şəraitdə iki rus növbətçisinin öldüyü, minlərlə insanın xəsarət aldığı bildirilirdi. Dinc nümayiş iştirakçılarına cəza tədbirləri tətbiq edildi. Gənc demokrat Kayrat Rıskulbekov mübarizə rəmzi kimi tanındı. K.Rıskulbekova dekabr hadisələrinə görə hakim partiya tərəfindən ölüm hökmü verildi. Kayrat müəmmalı şəraitdə həbsxanada öldü (1, 84-85).

Nizam-intizamı bərpa etmək üçün ilk dəfə olaraq ordudan istifadə edildi. Ümumiyyətlə, 1986-cı il Sovet tarixinə millətlərarası toqquşma ili kimi daxil oldu. Hələ Qazaxıstan hadisələrindən bir neçə ay əvvəl mart-aprel aylarında Yakutiyada yakut tələbələri ilə rus gəncləri arasında qarşıdurma olmuşdu.1986-cı ilin dekabr olayları zamanı küçələrə çıxan minlərlə insanın səsləndirdiyi "Kolbin, Rusiyaya geri dön", "İstiqlal istəyirik!", "Qazaxıstan qazaxlarındır!", "Qazaxıstan BMT-də təmsil olunmalıdır" kimi şüarlar da səslənmişdi (2,42-43). Bu da öz növbəsində sovet partiya rəhbərliyinin ciddi narahatlığına səbəb olmuşdu, ancaq həmin vaxt dərhal yeni təyinat dəyişmək siyasi gərginliyi daha da dərinləşdirə bilərdi. Etiraz dalğasının daha da qüvvətlənməsindən ehtiyat edən sovet rəhbərliyi 10 yanvar 1987-ci ildə Qazaxıstan KP MK-nın ikinci katibi vəzifəsinə milliyətcə qazax olan S.Kubasovu gətirmək məcburiyyətində qaldı (6, 87). Hadisələrin bir daha təkrarlanmaması üçün DTK vasitəsilə iştirakçılar təqib olunmağa, həbs edilməyə başlandı. Alma-Ata olayları Orta Asiyada milli məsələnin ciddi olduğunu, rusların və onların timsalında imperiyaya nifrətin getdikcə dərinləşdiyini göstərdi. Tələbələrin etiraz hərəkatı respublikanın ictimai-siyasi həyatı üçün xarakterik olmayan dinamiklik yaratdı. Artıq illərdən bəri yığılıb qalan problemlərin həll edilməsi yönümündə ictimaiyyətin tələblərindən doğan və ziyalıların rəhbərlik etdiyi çoxlu ictimai birliklər, qeyri-hökumət təşkilatları meydana çıxdı (2, 43).

1987-ci ildə Qazaxıstanda müstəqil təşkilatlar yarandı. Bu təşkilatlar içərisində cəmiyyətin həyatında tez bir müddətdə aparıcı rol oynamağa başlayan "Təşəbbüs" Sosial-Ekoloji Birliyini, Balxaş və Aral problemləri üzrə İctimai Komitəni misal göstərmək olar (4, 87). Bütövlükdə cəmiyyətin getdikcə demokratikləşməsi və inzibati-amirlik sisteminin laxlaması yeni ictimai-siyasi hərəkatların formalaşması və inkişafını stimullaşdırırdı. Siyasi arenaya atom əleyhinə hərəkat "Neveda-Semipalatinski"nin qədəm qoyması qazax cəmiyyətinin inkişafının yeni mərhələsi demək idi. Hərəkata görkəmli yazıçı və ictimai

xadim Oljas Süleymenov rəhbərlik edirdi. SSRİ-nin dağılması ərəfəsində yaranmış ictimai təşkilatların məhz sosial-ekoloji problemlərin həlli tələbi ilə çıxış etməsi təbii idi. Hələ Sovet İttifaqının tərkibində olduğu dövrdə Mərkəzi Asiyanın ekoloji durumunun getdikcə ağırlaşması müşahidə olunurdu. Bunun başlıca səbəbi isə yerli şəraitin imkanlarını nəzərə almadan kütləvi şəkildə kənd təsərrüfatı bitkilərinin əkilməsi, əkin sahələrinin süni surətdə genişləndirilməsi, istər SSRİ, istərsə də Çin tərəfindən yeraltı, yerüstü və səmada yüzlərlə nüvə silahının sınaqdan çıxarılması və s. olmuşdur.

Ekoloji tarazlığın pozulmasının nəticəsidir ki, Orta Asiya respublikaları keçmiş İttifaq miqyasında həmişə uşaq ölümünə görə ilkin yerləri tuturdu, nəsillərin cırlaşma prosesi intensiv xarakter alır, onkoloji xəstəliklərin sayı artırdı. Elə buna görə də, regionda yerləşən dövlətlərin qarşısında duran əsas məsələlərdən biri də təbii tarazlığı qoruyub saxlamaq, ekoloji problemlərin həlli üçün birgə səy göstərməkdir. Regionun ayrı-ayrı yerlərində SSRİ dəfələrlə nüvə silahını sınaqdan keçirib. 2002-ci ildə mərkəzi ofisi Surrey qraflığında yerləşən Britaniya Onkoloji Mərkəzinin mütəxəssisləri SSRİ-nin bir neçə on illər nüvə silahlarının sınaqdan keçirdiyi Semipalatinsk poliqonu yaxınlığında yaşayan insanlar üzərində tibbi ekspertiza aparıblar. 1949-1989-cu illər ərzində Sovet İttifaqı Semipalatinskdə 470 atom bombasını sınaqdan keçirib – onlardan 354-ü yer altında, 90-ı havada, 26-sı isə yerin təkində partladılıb. 40 il ərzində partlayışların ümumi çəkisi 17 milyon kiloton olub. Radioaktiv tullantıların poliqonun yaxınlığında yaşayan yaşlı və uşaqların səhhətinə mənfi təsir etməsi barədə geniş ictimaiyyətin heç bir məlumatı olmayıb. Sınaqlar keçirilən vaxt SSRİ-nin tibb mütəxəssisləri gizli qaydada həm Semipalatinskdə, həm də poliqondan 150 km kənarda məskunlaşmış əhali üzərində tibbi müşahidələr aparıb. Ancaq əldə olunan bütün nəticələr gizli saxlanılıb. Britaniya alimlərinin verdikləri açıqlamalara görə, nüvə silahının sınaqdan keçirilməsi nəticəsində nüvə çöküntüsü yaranmış zonalarda insanlarda gen dəyişmələri müşahidə olunur. Artıq BMT tərəfindən Semipalatinsk xüsusi təhlükə zonası hesab edilir. Qeyd edək ki, Semipalatinskdən uzaq olmayan, Qazaxıstanla sərhəddə yerləşən, uyğur türklərinin yaşadığı Çinin Sintszyan vilayətində də nüvə sınaqları keçirilməkdədir. Burada, 11-i yer altında olmaqla, 44 dəfə partlayış törədilib.

Kolbin Moskvada başqa vəzifəyə təyin olunduqdan sonra 1989-cu il iyunun 22-də Nursultan Abış oğlu Nazarbayev Qazaxıstan KP MK-nın birinci katibi seçildi. Nazarbayevin qazax türklərinin qəlbində bir lider olaraq özünə yer etməsini şərtləndirən amil dil məsələsi ilə bağlı olmuşdu. Sovetlərin uzun zaman dönəmində həyata keçirdiyi mədəni istila və assimilyasiya siyasəti, digər tərəfdən, yerli qazaxlardan sayca çoxluq təşkil edən rus gəlmələrinin burada yerləşdirilməsi nəticəsində uzun illər rus dili Qazaxıstanın rəsmi dili kimi istifadə olunurdu. Nazarbayev 1989-cu ilin sentyabr ayında qazax türkcəsinin respublikanın dövlət dili elan olunmasına nail oldu. Artıq bundan sonra qazax türkü öz ölkəsində ana dilindən rəsmi səviyyədə istifadə edə biləcəkdi (7, 187).

Uzun illər rus dili və mədəniyyətinin təsiri altında olan və incidilən qazax türkləri milli mənliyinin qorunmasında xidməti olan Nazarbayevə böyük hörmət və ehtiramla yanaşırlar. Mərkəzdə gedən proseslər, "yenidənqurma"nın sovet cəmiyyətinə bəxş etdiyi yumşalma, bürokratik dövlət aparatının artıq inzibati-amirlik metodları ilə işləyə bilməməsi Qazaxıstanda da geniş əks-səda doğurmuşdu (8, 19). Bu ərəfədə 1990-cı ilin martında XII çağırış Qazaxıstan Ali Sovetinə seçkilər keçirildi. Bu, hələ inzibati-amirlik sisteminin öz təsir imkanlarını qoruyub saxladığı bir şəraitdə keçirilən ilk demokratik seçki idi. 360 deputat mandatı uğrunda iki mindən artıq adam iştirak edirdi. Seçkilərdə ictimai təşkilatların 90-dan artıq nümayəndəsi qələbə çaldı. 1990-cı ildən başlayaraq, respublikada siyasi vəziyyət köklü surətdə dəyişdi. İctimai-siyasi hərəkatlar institutlara, birinci növbədə Qazaxıstan KP-nin hakim strukturuna təsir etməyə başladı. Rəhbərliyi iqtisadiyyatda yaranmış böhranda və həyata keçirilən islahatlarda qarşıya çıxan uğursuzluqda ittiham edirdilər. Bu zaman KP daxilində də fikir ayrılıqları baş qaldırmışdı və partiyanın özünün islahatlara ciddi ehtiyac duyması barədə açıq-aşkar fikirlər səslənirdi. Cəmiyyətin demokratikləşmə kursunun mahiyyətində siyasi sistemdə xalq nəzarətinin artırılmasını təmin etmək dayanırdı. Məhz belə şəraitdən faydalanaraq yeni partiyalar siyasi arenaya çıxdı.

"Azat", "Jeltoksan", "Alaş", "Birlik", Sosial-demokrat partiyası və s. Yeni ictimai birliklərin yaranması öz növbəsində ictimai təşkilatların fəaliyyətini tənzimləyən hüquqi bazanın formalaşdırılmasını zəruri edirdi. Bununla əlaqədar olaraq 1989-cu ilin 14 aprelində Qazaxıstan SSR Ali Soveti "Müstəqil ictimai birliklərin yaradılması və fəaliyyəti haqqında" qanun qəbul etdi. Ali Sovetin 1991-ci ilin yayında qəbul etdiyi "İctimai birliklər haqqında" qanunla isə respublikada ictimai birliklərin inkişafını stimullaşdıran hüquqi baza formalaşmış oldu.

1991-ci ilin 19 avqustunda Moskvada dövlət çevrilişinə cəhd və Dövlət Fövqəladə Vəziyyət Komitəsinin yaranması (DFVK) SSRİ-nin süqutunu sürətləndirdi, eyni zamanda müttəfiq respublikalarda milli-azadlıq hərəkatının vüsətlənməsinə təkan verdi. Bu zaman DFVK-nin qərarlarına tabe olmayacağını bildirən N.Nazarbayev xalqına müraciət etdi (3, 270). Suveren respublikanın prezidenti xalqın təbii tələbatından doğan bir sıra fərmanlar verdi: "Qazaxıstan SSR Təhlükəsizlik Şurasının yaradılması haqqında", "Qazaxıstan SSR Qızıl və Almaz fondunun yaradılması haqqında", "Semipalatinsk nüvə poliqonunun bağlanması haqqında" və s.

1991-ci ilin sentyabrında isə Qazaxıstan KP-nin buraxılması haqqında qərar qəbul edildi. SSRİ-nin əksər türkdilli respublikalarında olduğu kimi, burada da yerli partiya öz strukturunu qoruyub saxlaya bildi, başqa sözlə, cəmiyyətdə gedən proseslərin gedişində müəyyən keyfiyyət dəyişikliklərinə keçməklə hakim mövqenin qorunub saxlanılmasına nail olundu. Ölkədə çoxsaylı ictimai-siyasi hərəkatlarla yanaşı, Qazaxıstan KP daxilində də islahatameylli yenilikçi qüvvələr mövcud idi.

16 dekabr 1991-ci ildə Qazaxıstan dövlət müstəqilliyini elan etdi. Ali Sovet “Qazaxıstan Respublikasının dövlət müstəqilliyi haqqında” qanun qəbul etdi. SSRİ-nin dağılmasından sonra Qazaxıstan Sovet Sosialist Respublikası, postsovet məkanında dövlət müstəqilliyini elan edən sonuncu ölkə oldu. Bu tarixi hadisədən bir neçə gün öncə isə dekabrın 1-də Qazaxıstanın tarixində ilk dəfə olaraq, respublikada ümumxalq səsverməsi yolu ilə birinci prezident seçkiləri keçirildi. Seçkilərdə Nazarbayevə alternativ namizədliyi irəli sürülmüş X.Koyəhmədovu “Jeltoksan”, ”Alaş”, ”Azat” və başqa ictimai siyasi birliklər dəstəkləyirdi. Seçkilərdə N.Nazarbayev qələbə çaldı. Qazaxıstan prezidenti ümumxalq səsverməsi yolu ilə yeddi illiyə seçilir. Qazaxıstanda son prezident seçkisi 2011-ci il l4 fevralda keçirilmiş və N.Nazarbayev yenidən prezident seçilmişdir. 1992-ci il 4 iyunda “Qazaxıstan Respublikasının dövlət bayrağı haqqında” qanun qəbul olundu. Qazaxıstan Respublikasının dövlət bayrağı kvadrat şəkilli mavi qumaşdan hazırlanır. Bayrağın ortasında 32 işıq şüasından ibarət olan günəş və onun altında da bozqır qartalı, sol tərəfdə isə milli motivlərdən ibarət şaquli bir xətt yerləşir. Günəş, milli motivlər, işıq şüaları və qartal təsvirləri qızılı rəngdədirlər. Mavi türkçülüyü ifadə edir, günəş həyat mənbəyi, qartal heyvandarlığa işarədir. Qazaxıstan Respublikasının milli gerbi 1992-ci il 4 iyun tarixində yaranmışdır. Ölkənin dövlət dili Türk dilləri ailəsinə mənsub olan Qazax dilidir. Bundan əlavə rəsmi dil rus dilidir. Qazaxıstan Respublikasında qeydiyyatdan keçmiş 85 dini qurum fəaliyyət göstərir. Lakin əsas din İslam dinidir və əhalinin 60 %-i bu dinə etiqad edir. Qazaxıstan siyasi sisteminin mühüm komponenti olan Konstitusiyanın 1993-cü ilin 28 yanvarında qəbul olunmasına baxmayaraq, sonradan cəmiyyətdə siyasi münasibətlərin gərginləşməsi, xüsusən də hakimiyyətin qolları arasında böhran bura bir sıra yeni, mindən çox təklif bildirilmişdi. Konstitusiya komissiyası irəli sürülən bütün təklifləri nəzərdən keçirmiş və təkliflərin böyük bir hissəsi layihənin yekun variantında öz əksini taparaq 1993-cü ilin 28 yanvarında XII Çağırış Qazaxıstan Respublikası Ümumxalq Məclisinin doqquzuncu sessiyasında qəbul olunmuşdur.

**ƏDƏBİYYAT**

1.İsmayılov İ. Türk dünyası XX əsrin 90-cı illərində. Bakı: Zaman, 2001
2.Məmmədli N. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə. Bakı: 2005
3. Nazarbayev N. Yüzyılların kavşağında. Ankara: Bilig, 2000
4. Saray M. Yeni Türk Cümhuriyyetleri tarihi. Ankara: Bilig, 1999
5. Özdemir, Emin. 20.Yüzyılın Başlarında Kazakistanda Fikir Hareketleri,Yayınlanmamış Doktora Tezi, Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara: 2007
6. Muhtar Sahanov. Jeltoksan Epopeyası.bd, Almatı: 2006
7. Ali Kafkasyalı. Bağımsız lıklarının 20.Yılında Kazakların İstiklal Mücadelesi Tarihine Bir Bakış.Türk Dünyası Dncelemeleri Dergisi, XII/1, 2012
8.Ergin Ayan. Kafkaziya ve Türküstanda Ulus-Devletler Sistematinin Oluşma Süreci. Sosyal Bilimler Araştırmaları Dergisi, 2011

## НАЦИОНАЛЬНО-ОСВОБОДИТЕЛЬНАЯ БОРЬБА В КАЗАХСТАНЕ В 80-90-х ГОДАХ XX ВЕКА

**Х.И.ИЛЬЯСОВА**

**РЕЗЮМЕ**

Накал общественно-политической напряженности в Казахстане накануне распада СССР привело к усилению национально-освободительного движения. Образование общественных организации и студенческое движение еще больше усилило борьбу и 16 декабря 1991 года Казахстан объявил государственную независимость.

**Ключевые слова:** независимость, социально-экологические проблемы, национально-освободительное движение, общественные организации.

## NATIONAL-FREEDOM STRUGGLE IN KAZAKHSTAN IN THE 80-90S OF THE XX CENTURY

**Kh.I.ILYASOVA**

**SUMMARY**

Increase of public- political tension in Kazakhstan on the eve of the collapse of the USSR resulted in widening of mass protest waves and spreading of national-freedom movement. Creation of student movements and public unions influenced the struggle for freedom more ardently and on December 1991, Kazakhstan declared its state independence.

**Key words:** independence, social-ecological problems, national-freedom movements, public unions